**«Təsdiq edilmişdir»**
**"Bakı Fond Birjası" QSC-nin**
**İdarə Heyəti**
**Protokol № 08**
**"30" dekabr 2015-ci il**

**Sədr ______________ F.Əzizov**

# "Bakı Fond Birjası" QSC-nin qiymətli kağızlar və törəmə maliyyə alətləri bazarlarında sui-istifadə hallarının qarşısının alınması və ticarət olunan bazarların qorunması Qaydaları

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Qiymətli kağızlar bazarı haqqında Azərbaycan Respublikasının Qanunu"na və Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi (bundan sonra - QKDK) tərəfindən qəbul edilmiş normativ-hüquqi aktlara, "Bakı Fond Birjası" QSC-nin (bundan sonra - Birja) nizamnaməsi, daxili qaydalarına uyğun hazırlanmışdır.

1.2. Bu Qaydalar Birjada sui-istifadə hallarının müəyyən edilməsi, qarşısının alınması, dayandırılması və ticarət olunan bazarların qorunması qaydalarını müəyyən edir.

1.3. Bu Qaydalar Birjanın bütün rəhbər heyətinə, əməkdaşlarına, listinqdə olan qiymətli kağızların emitentlərinə və Birja ticarətində iştirak edən birja üzvləri və onların səlahiyyətli treyderlərinə şamil edilir.

## 2. Əsas anlayışlar

2.1. **Mübahisələrin həll edilməsi Komissiyası -** Birjanın komitə və komissiyalarının qərarlarına qarşı şikayətə baxan, Birja qaydalarının şərh edilməsi və həmçinin Birjada yaranmış mübahisələrin həlli funksiyasını daşıyan komissiya;

2.2. **Ticarət əməliyyatları -** Birjada, Birjanın ticarət sistemi vasitəsi ilə qiymətli kağızlara abunə, onların alışı, satışı, və ya qiymətli kağızlara abunə, alış və satışa razılıq verilməsi, o cümlədən, nümayəndə vasitəsilə ilkin kütləvi təklif (İKT) çərçivəsində təklif edilən qiymətli kağızlara abunə yazılışı;

2.3. **İnsayd məlumatı -** açıqlanmamış, birbaşa və ya dolayı yolla bir və ya bir neçə emitentə, qiymətli kağızlara və ya törəmə maliyyə alətlərinə aid olan və açıqlandığı təqdirdə qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin qiymətinə əhəmiyyətli dərəcədə təsir edə biləcək dəqiq xarakterli məlumat;

2.4. **Emitent -** investisiya qiymətli kağızlarının emissiyasını Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirən şəxs, dövlət (müvafiq qaydada buna səlahiyyətləndirilmiş dövlət orqanı vasitəsilə) və ya bələdiyyə;

2.5. **İnsayder - aşağıdakı şəxslər aid edilir:**

2.5.1. emitentin orqanlarının və audit komitəsinin üzvləri;

2.5.2. benefisiarlar;

2.5.3. insayd məlumatı tutduğu vəzifəyə, müqaviləyə əsasən, yaxud emitent və ya digər insayder tərəfindən müvafiq hüququn verilməsi nəticəsində əldə etmək imkanı olan şəxs;

2.5.4. emitentin icra orqanının səlahiyyətlərini müqaviləyə əsasən həyata keçirən şəxs;

2.5.5. emitentin nizamnamə kapitalının 10 və ya daha çox faizini təşkil edən paya birbaşa və ya dolayı yolla malik olan şəxs;

2.5.6. insayd məlumatı qeyri-qanuni yolla əldə etmiş şəxs;

2.5.7. insayd məlumatı müqavilə əsasında, yaxud emitent və ya digər insayder tərəfindən müvafiq hüququn verilməsi nəticəsində əldə etmək imkanı olan şəxs;

2.5.8. bu Qaydaların 2.5.4-cü və 2.5.5-ci yarımbəndlərində göstərilən şəxslər hüquqi şəxs olduqda, onun hesabına əqdin bağlanması qərarının verilməsində iştirak edən şəxs;

2.5.9. bu Qaydaların 2.5.1 - 2.5.5-ci yarımbəndlərində göstərilən şəxslərin yaxın qohumları (əri (arvadı), valideynləri, o cümlədən ərinin, arvadının valideynləri, babaları və nənələri, övladları, övladlığa götürənləri, qardaşları və bacıları).

2.6. **Ticarət olunan bazarlar -** Birja aşağıdakı bazarların ticarətini təşkil edir:

2.6.1. dövlət qiymətli kağızlarının bazarı;

2.6.2. korporativ qiymətli kağızların bazarı;

2.6.3. törəmə maliyyə alətlərinin bazarı.

2.7. **Ticarət sistemi -** Birjanın proqram təminatı, verilənlər bazası, telekommunikasiya sistemləri və digər avadanlıqlarından ibarət olmaqla, həm bilavasitə birjanın ticarət zalında, həm də ondan kənarda (daxil olmaq üçün terminal vasitəsi ilə) birja əməliyyatları və əqdlərinin həyata keçirilməsi üçün zəruri olan məlumatları təmin etmək, saxlamaq, işləmək və açıqlamaq imkanı verən proqram təminatı və kompüter şəbəkə sistemidir.

## 3. Qiymətli kağızlar və törəmə maliyyə alətləri bazarlarında sui-istifadə hallarının qarşısının alınması üzrə ümumi müddəlar

3.1. İnsayd məlumatın istifadəsi ilə Birjada əqdlərin bağlanması və manipulyasiyalar qadağan edilir.

3.2. Bu Qaydalarla insayd ticarətinə və maniplusyasiyalara dair müəyyən edilmiş müddəalar aşağıdakılara şamil edilmir:

3.2.1. Azərbaycan Respublikasının Mərkəzi Bankının və ya digər dövlət orqanların pul, dövlət borc və valyuta tənzimi siyasətinin həyata keçirilməsi məqsədilə keçirilən əməliyyatlara;

3.2.2. Qanunvericiliyə uyğun olaraq qiymətli kağızların qiymətinin sabitləşdirilməsi və emitent tərəfindən qiymətli kağızların geri alınması üzrə keçirilən əməliyyatlara.

## 4. Şübhəli ticarət əməliyyatlarının müəyyən edilməsi

4.1. Listinqdə olan qiymətli kağızlar üzrə mövcud bazar şəraitində məntiqi izahı verilə bilməyən ticarət əməliyyatları, o cümlədən bazar manipulyasiyası üzrə şübhələr yaradan bütün digər əməllər qeyri-adi və ya şübhəli hesab edilir.

4.2. Aşağıdakılar bazar manipulyasiyası hesab edilir:

4.2.1. qiymətli kağızların və törəmə maliyyə alətlərinin qiymətinə və ya onlara olan tələb və təklifə dair yanlış və ya aldadıcı məlumatlar verən və ya verə bilən əqdlər bağlanması və ya tapşırıqlar (sifarişlər) verilməsi;

4.2.2. əqdlər bağlanması və ya əqdlər bağlanması üçün tapşırıq verilməsi vasitəsilə bir və ya birgə hərəkət edən bir neçə şəxs tərəfindən qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin qiymətinin süni səviyyədə saxlanılması və dəyişdirilməsi;

4.2.3. saxta vasitələrdən istifadə etməklə, yaxud qiymətli kağızlarla və ya törəmə maliyyə alətləri ilə saxtakarlıqla müşayiət olunan əqdlərin bağlanması və ya belə əqdlərin bağlanması üçün tapşırıq verilməsi;

4.2.4. kütləvi informasiya və ya hər hansı digər vasitələrlə qiymətli kağızlara və ya törəmə maliyyə alətlərinə dair yanlış və yayındırıcı təsəvvür yaradan və ya yarada biləcək xəbərlərin, şayiələrin və digər məlumatın yayılması.

4.3. Qiymətli kağızlar bazarında sui-istifadələrin baş verməməsi üçün aşağıdakıların həyata keçirilməsinə yol verilmir:

4.3.1. qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin bağlanış qiymətlərinə təsir göstərmək məqsədi ilə ticarət gününün (sessiyanın) sonunda qəsdən alqı-satqı əqdlərinin bağlanmasına;

4.3.2. qiymətli kağızların və törəmə maliyyə alətlərinin qiymətinə və ya onlara olan tələb və təklifə dair yanlış təəssüratın yaradılması məqsədi ilə əvvəlki sifarişlərdən fərqlənən qiymətlə tapşırıqların və ya sifarişlərin verilməsinə və sonradan ləğv edilməsinə;

4.3.3. Azərbaycan Respublikasının Qanunları ilə nəzərdə tutulmuş hallar istisna olmaqla, bir şəxs və ya gizli razılaşma əsasında bir neçə şəxs tərəfindən eyni qiymətli kağızların bir vaxtda eyni həcm və qiymətlə alınması və satılması üzrə tapşırıq və ya sifarişlərin verilməsinə;

4.3.4. qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin benefisiarının dəyişməsi ilə nəticələnməyən və ya bu dəyişikliyin birgə və ya gizli razılaşma əsasında fəaliyyət göstərən şəxslər arasında baş verməsi ilə nəticələnən əqdlərin bağlanmasına;

4.3.5. əldə edilmiş qiymətli kağızların qiymətinin artırılması və sonradan yüksək qiymətlə satılması məqsədilə, həmin qiymətli kağızlar üzrə əlavə alış əqdlərinin bağlanması və (və ya) yanlış müsbət məlumatların yayılmasına;

4.3.6. kütləvi təklif üsulu ilə yerləşdirmə zamanı qiymətli kağızları əldə etmiş şəxslər tərəfindən, qiymətli kağızların qiymətinin süni səviyyəyə qaldırılması və digər investorların həmin kağızlara olan marağının

artırılması məqsədi ilə emitentin həmin növ qiymətli kağızları üzrə ticarət başlandığı andan gizli razılaşma əsasında alış əqdlərinin bağlanmasına;

4.3.7. insayd məlumat əsasında digər şəxsləri qiymətli kağızların və törəmə maliyyə alətlərinin alınmasına (satılmasına) və ya alınmasından (satılmasından) imtina edilməsinə təhrik edilməsinə və ya tövsiyələrin verilməsinə;

4.3.8. insayd məlumatdan istifadə etməklə, öz və ya digər şəxslərin hesabına birbaşa və ya dolayı yolla qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin alqı-satqısına və ya belə əqdlərin keçirilməsinə cəhd edilməsinə;

4.3.9. kütləvi informasiya və ya hər hansı digər vasitələr ilə qiymətli kağızlara dair yanlış və yayındırıcı təsəvvür yaradan və ya yarada biləcək xəbərlərin, şayiələrin və digər məlumatların yayılmasına;

4.3.10. birbaşa və ya dolayı yolla fayda və ya gəlirin əldə edilməsi üçün jurnalistlər tərəfindən öz peşə vəzifələrini həyata keçirərkən bu Qaydaların 4.3.9-cu yarımbəndində əks edilən məlumatların yayılmasına;

4.3.11. xidməti vəzifələrin həyata keçirilməsi ilə əlaqədar insayd məlumatın açıqlanması halları istisna olmaqla, digər şəxslərə həmin məlumatı ötürməyə.

4.4. Birja təşkil olunan bazarların qorunması məqsədilə ticarət sistemində bağlanmış əqdlərin monitorinqini aparırır.

## 5. Şübhəli ticarət əməliyyatları barədə məlumatların saxlanılması və təqdim edilməsi

5.1. Qiymətli kağızlarla və törəmə maliyə alətlərlə Birjanın ticarət sistemində əqdlərin bağlanması zamanı insayd ticarəti və bazar manipulyasiyası halları barədə şübhə olduqda, Birja bu barədə məlumatı dərhal QKDK-ya təqdim edir. Həmin məlumatların üçüncü şəxslərə açıqlanmasına yol verilmir.

5.2. Şübhəli əqd barədə məlumatda aşağıdakılar öz əksini tapmalıdır:

5.2.1. tapşırığın (sifarişin) və ya əqdin şübhəli hesab edilməsi üçün əsas verən səbəblər;

5.2.2. investisiya şirkətinə tapşırığı verən şəxs haqqında məlumat (fiziki şəxs olduqda: adı, soyadı, atasının adı, ünvanı, telefon nömrəsi, şəxsiyyəti təsdiq edən sənədin göstəriciləri, depo hesab nömrəsi, hüquqi şəxs olduqda: tam adı, VÖEN, hüquqi ünvanı, depo hesab nömrəsi);

5.2.3. Birjasının ticarət sisteminə sifarişi verən investisiya şirkəti haqqında məlumat (tam adı, investisiya şirkətinin birjanın ticarət sistemindən istifadə hüquqlarını həyata keçirən səlahiyyətli nümayəndəsinin adı, soyadı, atasının adı və investisiya xidmətlərinin göstərilməsi üçün ixtisas şəhadətnaməsinin nömrəsi).

5.2.4. şübhəli əqdin öyrənilməsi üçün mühüm olan digər məlumatlar;

5.2.5. məlumatı təqdim edən şəxsin adı, soyadı və imzası;

5.2.6. məlumatın təqdim edilmə tarixi.

5.3. Birja, ticarət sistemində qeydə alınmış bütün şübhəli ticarət əməliyyatlarının elektron daşıyıcılarda saxlanılmasını təmin edir. Şübhəli ticarət əməliyyatları barədə məlumatda ən azı aşağıdakı müddəalar qeyd olunur:

5.3.1. şübhə yaradan sui-istifadə halı (əməlinin) növü (növü müəyyən etmək mümkün olduqda);

5.3.2. qeydə alınmış fəaliyyətin qısa təsviri və şübhələnməyə əsas verən konkret faktlar;

5.3.3. şübhəli sifariş (sifarişlər), əqd (əqdlər) ilə bağlı bütün müvafiq detallar;

5.3.4. yaranmış şübhələri əsaslandırmaq üçün Birjaya məlum olan digər məlumatlar;

5.3.5. şübhəli ticarət əmaliyyatı ilə bağlı Birja tərəfindən görülən tədbirlər;

5.3.6. Qanunvericilikdə nəzərdə tutulmuş digər məlumatlar.

## 6. Birjanın təşkil etdiyi bazarlarda sui-istifadə hallarının qarşısının alınması üçün Birja tərəfindən görülən tədbirlər

6.1. Birja sui-istifadə hallarının (əməllərinin) qarşısını almaq məqsədilə aşağıdakı tədbirləri həyata keçirir.

6.1.1. Listinq və Ticarət Qaydalarına uyğun olaraq ticarətin dayandırılması;

6.1.2. Üzvlük Qaydalarına uyğun olaraq Birja üzvlərinə qarşı məsuliyyət tədbirlərinin tətbiq edilməsi;

6.1.3. Birjanın əməkdaşlarına qarşı intizam tədbirlərinin görülməsi;

6.1.4. Bu Qaydaların 5.1-ci bəndinə müvafiq olaraq QKDK-nın məlumatlandırılması;

6.1.5. Qanunvericilikdə nəzərdə tutulan digər tədbilər.

6.2. Bazarda sui-istifadə hallarının qarşısının alınması məqsədi ilə Birja aşağıdakı hallarda ticarət əməliyyatlarını dayandırır:

6.2.1. Yaranmış sui-istifadə halı və ya onun baş verməsi şübhəsi emitent tərəfindən açıqlanmalı olan məlumatların Birjanın qaydaları və qanunvericiliklə tələb olunan qaydada və müddətdə açıqlanması ilə əlaqədar olduqda;

6.2.2. Qiymətli kağızların ticarəti bazarın normal fəaliyyət rejimini və təhlükəsizliyini pozduqda və ya investorların maraqları üçün təhlükə törətdikdə;

6.2.3. QKDK-nın müvafiq qərarı əsasında;

6.2.4. Birjanın Ticarət və Listinq qaydaları ilə nəzərdə tutulmuş digər hallarda.

6.3. Birja aşağıdakı hallarda ticarət əməliyyatlarını dərhal dayandırır:

6.3.1. Ticarətə buraxılmış qiymətli kağızların və törəmə maliyyə alətlərin bazar qiymətinin Birjanın Ticarət qayaları ilə müəyyən edilmiş minimal və maksimal qiymət həddlərinə çatdıqda;

6.3.2. Birjanın ticarət sistemində texniki nasazlıq baş verdikdə;

6.3.3. İstinad (açılış) qiymətinin dəyişdirilməsi zamanı;

6.3.4. Birjanın Ticarət və Listinq qaydaları ilə nəzərdə tutulmuş digər hallarda.

6.4. Birja Üzvlük qaydalarına müvafiq olaraq bazarda sui-istifadə hallarının qarşısının alınması məqsədi ilə Birja üzvünü və ya onun səlahiyyətli treyderini aşağıdakı hallarda ticarətdən kənarlaşdırır:

6.4.1. Üzvün və ya onun səlahiyyətli treyderinin fəaliyyəti Birjanın təhlükəsiz və ardıcıl işinə təhlükə yaratdıqda;

6.4.2. Üzvün və ya onun səlahiyyətli treyderinin fəaliyyətində manipulyasiya, saxtakarlıq və ya fırıldaqçılıq şübhələri aşkarlandıqda;

6.4.3. Birjanın Üzvlük qaydaları ilə nəzərdə tutulmuş digər hallarda.

6.5. Birja bazarda manipulyasiya və sui-istifadə hallarının müəyyən edilməsi və qarşısının alınması məqsədi ilə manipulyasiyalara və sui-istifadəyə yol aça biləcək məlumatlara və ya vasitələrə çıxışı olan, habelə belə halların monitorinqi və qaşısının alınması işinə cəlb edilmiş müvafiq əməkdaşların lazımi səviyyədə mariflandirilməsini təmin edir. Təlim proqramına ən azı aşağıdakı mövzular daxil edilir:

6.5.1. bazardan sui-istifadə halların (əməllərin) təsnifatı;

6.5.2. QKDK-nın müvafiq normativ-hüquqi aktları və Birjanın qaydaları;

6.5.3. bazardan sui-istifadənin nəticələri və görülən məsuliyyət tədbirləri;

6.5.4. sui-istifadə halı (əməli) qeydə alındıqda görüləcək tədbirlər, sui-istifadə halını (əməlini) qeydə alan əməkdaşlar kimə məruzə etməlidir;

6.5.5. məxfilik öhdəliyi;

6.5.6. Birja əməkdaşlarına şamil edilən qadağalar.

## 7. Məsuliyyət tədbirləri

7.1. Birja bazarda sui-istifadə hallarını törətmiş və ya buna bilərəkdən səbəb olmuş, o cümlədən vasitəçilik etmiş birja üzvləri və onların səlahiyyətli treyderlərinə qarşı Birjanın Üzvlük qaydalarına müvafiq şəkildə aşağıdakı məsuliyyət tədbirlərini görür:

7.1.1. Xəbərdarlıq;

7.1.2. Cərimə;

7.1.3. Ticarət etmək hüquqlarının müvəqqəti dayandırılması;

7.1.4. Üzvlüyə xitam verilməsi;

7.1.5. Birjanın Üzvlük qaydaları ilə nəzərdə tutlmuş digər tədbirlər.

7.2. Birja bazarda sui-istifadə hallarını törətmiş və ya buna bilərəkdən səbəb olmuş, o cümlədən vasitəçilik etmiş qiymətli kağızları Birjada listinqdə olan emitentlərə qarşı Birjanın Listinq qaydalarına müvafiq şəkildə aşağıdakı məsuliyyət tədbirlərini görür:

7.2.1. Xəbərdarlıq;

7.2.2. Cərimə;

7.2.3. Qiymətli kağızların daha aşağı səviyyəli lisitinq tələbləri olan bazar seqmentinə keçirilməsi;

7.2.4. Qiymətli kağızların delistinqi.

7.2.5. Birjanın Listinq qaydaları ilə nəzərdə tutlmuş digər tədbirlər.

7.3. Birja əməkdaşlarının sui-istifadə halına yol verməsi sübut olunarsa, Birja həmin şəxslərə qarşı lazımi intizam tədbirləri görə bilər və ya onları işdən kənarlaşdıra bilər. İntizam tədbirləri Əmək Məcəlləsinin müvafiq müddəaları nəzərə alınmaqla Birjanın İdarə Heyəti tərəfindən görülür.

## 8. Birjada təşkil olunan bazarların qorunması üzrə tədbirlər proseduru

8.1. Birja təşkil olunan bazarların qorunmasını təmin etmək məqsədilə aşağıdakıları həyata keçirir:

8.1.1. Bazardan sui-istifadə hallarını və insayder ticarətini müəyyən edir və qarşısının alınması istiqamətində bu Qaydalara müvafiq olaraq tədbirlər görür;

8.1.2. ticarət sistemində bağlanmış əqdlərin monitorinqini aparırır.

8.2. Birjanın əməkdaşı tərəfindən şübhəli ticarət əməliyyatı aşkarlandıqda,

dərhal yazılı formada elektron poçt vasitəsi ilə Birjanın rəhbərliyinə və QKDK-ya məlumat verilir. Tələb olunduqda, məlumat sənəd şəklində QKDK-ya təqdim edilir.

8.3. Ticarət əməliyyatının sui-istifadə və ya manipulyasiya nəticəsində keçirilməsi QKDK tərəfindən təsdiq edildikə və ya Birja tərəfindən müstəqil şəkildə qeyd-şərtsiz dəlillərlə müəyyən edildikdə, bu Qaydalarda nəzərdə tutulmuş təbdirlərin görülməsi Birjanın rəhbərliyinin yazılı göstərişi (təqdimatı) ilə həyata keçirilir. Məsələyə baxılması Birjanın müvafiq Komitəsi (Komissiyası) tərəfindən nəzərdə tutulduqda, müvafiq qərarın verilməsi üçün təxirə salınmadan iclas təşkil edilir.

8.4. Bu Qaydaların 4.2-cü bəndində qeyd edilmiş hallarda sui-istifadə və ya manipulyasiya halının qarşının alınması tədbiri Birjanın rəhbərliyinin yazılı göstərişi (təqdimatı) olmadan dərhal həyata keçirilir.